# HEQT

HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ

# YARIMİLLİK HESABAT 2026

"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxs Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə yaradılıb.

## APARILMIŞ HÜQUQİ EKSPERTİZALAR

- Kazino oyunlarının təşkili və keçirilməsi ilə bağlı layihələr;
- Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının icrası çərçivəsində şəhərsalma qanunvericiliyi ilə bağlı layihələr.
- Ümumilikdə, hesabat dövründə **2 qanun** layihəsinin, Azərbaycan Respublikası Prezidentinin **2 fərman** layihəsinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin **2 qərar** layihəsinin hüquqi ekspertizası aparılıb.



## MƏRKƏZİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

- Mərkəzdə hüquqşünas ixtisası üzrə yaranmış yeni vakansiyalarla bağlı müvafiq namizədlərlə müsahibələr aparılaraq təyinatlar həyata keçirilib;
- Hesabat dövründə Mərkəzin rəsmi internet saytına 8000-dən artıq giriş, saytdakı paylaşımlara 19000-dən çox baxış, sosial şəbəkə hesablarında isə 90000-dən çox baxış qeydə alınıb;
- Hesabat dövründə Mərkəzin fəaliyyəti barədə rəsmi internet saytının "Xəbərlər" bölməsində və sosial şəbəkə hesablarında ümumilikdə 180-dən çox paylaşım edilib.



## HAZIRLANMIŞ HÜQUQİ AKTLAR

- Səhiyyə qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı müxtəlif layihələr:
  "Tibbi rəqəmsal əkiz" altsistemi ilə bağlı İnzibati Xətalar Məcəlləsində və "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda dəyişikliklərlə bağlı layihələr;
  "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanunda dəyişikliklərlə bağlı layihələr;
  Dövlət Sanitariya və Epidemiologiya Nəzarəti Xidmətinin fəaliyyətinin təmin olunması ilə bağlı layihələr;
  "Tibb müəssisələrinin akkreditasiyası Qaydası"nda dəyişikliklərlə bağlı layihələr;
  V.Y.Axundov adına İctimai Səhiyyə İnstitutunun fəaliyyətinin təmin edilməsi ilə bağlı layihələr.
- Ümumilikdə, hesabat dövründə **2 qanun** layihəsinin, Azərbaycan Respublikası Prezidentinin **4 fərman** layihəsinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin **1 qərar** layihəsinin və **mərkəzi icra hakimiyyəti orqanının 1 qərar** layihəsinin hazırlanması təmin edilib.

## HÜQUQİ ARAYIŞLAR VƏ RƏYLƏR

- Konstitusiya Məhkəməsinin müraciətləri üzrə **15 hüquqi rəy;**
- Ali Məhkəmənin müraciətinə əsasən **1 mülahizə;**
- Müxtəlif dövlət orqanlarından (qurumlarından) Mərkəzə daxil olmuş müraciətlər əsasında **4 arayış və hüquqi rəy.**


(012) 526-40-51

heqt.gov.az

Bakı ş., Nəsimi r., M. Qardaşları 117C, Ritz Plaza

office@heqt.gov.az



## QANUNVERİCİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI TƏKLİFLƏR

- Mikro, kiçik və orta sahibkarlıq subyektlərinə, ixracatçılara və investorlara dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin mərhələli şəkildə özəl sektor subyektləri tərəfindən həyata keçirilməsi mexanizmləri ilə bağlı təkliflər;
- “Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın 8-ci hissəsi ilə əlaqədar şəhərlərdə iqlim dəyişikliyinin təsirlərinin azaldılması məqsədilə “yaşıl tikinti” və “yaşıl bina” yanaşmaları nəzərə alınmaqla şəhərsalma və tikinti qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflər;
- “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunda dəyişiklik edilməsi barədə” qanun layihəsinin və həmin dəyişikliklərdən irəli gələn əlaqəli normativ hüquqi aktların hazırlanması ilə əlaqədar sözügedən qanunun təkmilləşdirilməsinə dair təkliflər.

## NORMAYARATMA VƏ HÜQUQ NORMALARININ TƏTBİQİ SAHƏSİNDƏ TƏLİMLƏR

Hesabat dövründə dövlət orqanlarında (qurumlarında) çalışan əməkdaşların hüquqi biliklərinin və təcrübələrinin artırılması üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində **1 təlim** (beş günlük) keçirilib. Təlimlərdə, ümumilikdə, **15 nümayəndə** iştirak edib.



## MƏRKƏZİN ƏMƏKDAŞLARININ BİLİK VƏ BACARIQLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ ÜZRƏ

- Mərkəzin əməkdaşları cari ilin 12 yanvar - 2 mart tarixlərində “Soft skills” (Yumşaq bacarıqlar) proqramına cəlb ediliblər.
- Cari ilin 4 iyun tarixində Mərkəzin əməkdaşları üçün “Süni intellekt alətləri və onların tətbiqi” mövzusunda silsilə təlimlərin keçirilməsinə başlanılıb.

## ELMİ-PRAKTİKİ KOMMENTARİYALARIN HAZIRLANMASI ÜZRƏ İŞLƏR

Hesabat dövründə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 510.2-ci və 510.3-cü maddələrinin elmi-praktiki kommentariyası hazırlanaraq Mərkəzin rəsmi internet saytında yerləşdirilmişdir.

## HÜQUQİ MAARİFLƏNDİRMƏ

Hesabat dövründə 2 könüllü tələbə Mərkəzdə təcrübə proqramına cəlb edilib. Təcrübə proqramını uğurla başa vuran tələbəyə Mərkəzin İcraçı direktorunun müavini tərəfindən sertifikat təqdim olunub. Digər təcrübəçinin isə Mərkəzin müvafiq şöbəsində könüllülük fəaliyyəti davam edir.



## MƏRKƏZƏ DAXİL OLMUŞ MÜRACİƏTLƏR ÜZRƏ

Hesabat dövründə dövlət qurumlarından və vətəndaşlardan Mərkəzə **225 sənəd** daxil olub. Müraciətlər qanunvericiliyə uyğun olaraq cavablandırılıb.